**AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ**

**KOLLEGİYA QƏRARI**

**№ 17-N**

**25 avqust 2016-cı il** **Bakı şəhəri**

**"Vərəsəlik işlərinin açılıb-açılmaması barədə məlumatın verilməsi üzrə inzibati reqlament"in təsdiq edilməsi barədə**

"Dövlət orqanlarının *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin* elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron xidmət növlərinin Siyahısı"na uyğun olaraq "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin 19-cu bəndinə əsasən Kollegiya[1]

**QƏRARA ALIR:**

1. "Vərəsəlik işlərinin açılıb-açılmaması barədə məlumatın verilməsi üzrə inzibati reqlament" təsdiq edilsin (əlavə olunur).
2. Bu Qərarın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi təmin olunsun (A.Əliyev).
3. Qərar aidiyyəti ədliyyə orqanlarına göndərilsin.

**Azərbaycan Respublikasının**
**ədliyyə naziri**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Fikrət Məmmədov**

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Kollegiyasının 25 avqust 2016-cı il tarixli 17-N nömrəli qərarı ilə təsdiq edilmişdir.

**Vərəsəlik işlərinin açılıb-açılmaması barədə məlumatın verilməsi üzrə inzibati reqlament**

## 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** Vərəsəlik işlərinin açılıb-açılmaması barədə məlumatın verilməsi.

**1.2. Elektron xidmətin məzmunu:** Bu elektron xidmət istifadəçilərə vərəsəlik işinin hansı notariat *ofisində* açılması və ya vərəsəlik işinin ümumiyyətlə açılmaması ilə bağlı məlumatın elektron qaydada verilməsi qaydalarını müəyyən edir.[2]

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:**

1.3.1. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı və 10-cu maddələri;

1.3.2. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin 9.9-cu bəndi;

1.3.3. "Dövlət orqanlarının *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin* elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-1-ci hissəsi;[3]

1.3.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanları *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər* tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları" və "Elektron xidmət növlərinin Siyahısı"nın 3.19-cu bəndi.[4]

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi

**1.5. Elektron xidmətin digər icraçıları:** Yoxdur.

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** Elektron xidmət tam avtomatlaşdırılmışdır.

**1.7. Elektron xidmətin icra müddəti:** Elektron xidmətin icra müddəti istifadəçi tərəfindən tələb olunan məlumatların informasiya sistemində emalı müddətindən asılıdır.

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:** İstifadəçi vərəsəlik işinin hansı notariat *ofisində* açılması və ya ümumiyyətlə açılmaması ilə bağlı məlumatı əldə edir.

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:** İnteraktiv.

**2.2. Elektron xidmət üzrə ödəniş:** Ödənişsiz.

**2.3. Elektron xidmətin istifadəçiləri:** Fiziki və hüquqi şəxslər.

**2.4. Elektron xidmətin təqdim olunma yeri:** http://www.e-gov.az**;** http://exidmet.justice.gov.az

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**

**2.5.1. İnternet ünvanı:** http://www.e-gov.az; http://www.justice.gov.az

**2.5.2. Elektron poçt:** contact@justice.gov.az; notvva@justice.gov.az

**2.5.3. Telefon:** (+99412) 430 09 77 / (+99412) 404 42 81

**2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:** Elektron xidmətdən istifadə etmək üçün sənəd tələb olunmur.

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

**3.1. İnteraktiv elektron xidmətlər üçün sorğu.**

**3.1.1. Sorğunun formalaşdırılması:** İstifadəçi elektron xidmətin təqdim edildiyi internet ünvanlarından birinə daxil olaraq açılmış ərizə formasının (əlavə olunur) müvafiq hissələrinə ölən şəxsin ad, soyad, ata adını və ölüm tarixi barədə məlumatları daxil edib "Axtar" düyməsini vuraraq sorğunu formalaşdırır.

**3.1.2. Sorğunun qəbulu:** Sorğu informasiya sistemində yerləşdirildikdən dərhal sonra qeydiyyata alınır.

**3.2. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

**3.2.1. Sorğunun yerinə yetirilməsindən imtina halları:**

1. İstifadəçi tərəfindən müvafiq məlumatlar tam daxil edilmədikdə sorğunun yerinə yetirilməsindən imtina edilir və imtinanın səbəbləri həmin internet səhifəsində dərhal əks olunur.

2. Elektron xidmətin göstərilməsindən imtina istifadəçinin yenidən müraciət etməsinə mane olmur.

**3.2.2. Sorğunun qəbulu:** Sorğu istifadəçi tərəfindən bu reqlamentin 3.1.1-ci yarımbəndinə uyğun formalaşdırıldıqda qəbul olunur.

**3.3. Sorğunun icrası:**

**3.3.1. Ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:**

1. İstifadəçinin tələb olunan məlumatları daxil etməsi;

2. Axtarışın həyata keçirilməsi.

**3.3.2.** Elektron xidmətin icrasına görə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsi (bundan sonra –Baş İdarə) məsuliyyət daşıyır.

**3.3.3. Hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və ya maksimal yerinə yetirilmə müddəti:**

1. İstifadəçi müvafiq informasiya sisteminə ölən şəxsin ad, soyad, ata adını və ölüm tarixi barədə məlumatları daxil edərək "Axtar" düyməsini vurur;

2. Axtarışın nəticəsində istifadəçiyə vərəsəlik işinin hansı notariat *ofisində* açılması və ya ümumiyyətlə açılmaması barədə məlumat verilir;

3. Axtarışın parametrlərinə uyğun olaraq prosesin müddəti məlumatların informasiya sistemində avtomatlaşdırılmış qaydada emalına sərf olunan vaxtdan asılıdır.

**3.3.4. İnzibati əməliyyatda iştirak edən digər** *dövlət qurumu* **haqqında məlumat:** Yoxdur.[5]

**3.3.5. Hər bir inzibati prosedurun nəticəsi:** İstifadəçi vərəsəlik işinin açılıb-açılmaması, açıldığı halda isə hansı notariat *ofisində* açılması barədə məlumatı əldə edir.

**3.4. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:** Elektron xidmətin yerinə yetirilməsinə nəzarəti Baş İdarə həyata keçirir.

**3.4.1. Nəzarət forması**: Daxil olan müraciətlərin avtomatlaşdırılmış rejimdə təşkil olunmuş mütəmadi monitorinqi.

**3.4.2. Nəzarət qaydası:** Monitorinq nəticəsində müraciətlərin qəbulu, cavablandırılmasının müddəti və prosesin tamlığı izlənilir, baş verən nöqsanlar barədə hesabatlar tərtib olunur. Həmin hesabatlar sistemin fəaliyyətinə məsul olan şəxslər tərəfindən daim izlənilir.

**3.5. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:** Elektron xidmətin göstərilməsinə görə müvafiq notariat *ofisi*, təşkilinə görə isə Baş idarənin aidiyyəti struktur qurumu məsuliyyət daşıyır.

**3.5.1. İstifadəçinin şikayət etmək hüququ haqqında məlumat:** İstifadəçi elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) inzibati qaydada və (və ya) məhkəməyə şikayət edə bilər.

**3.5.2. Şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya:** Şikayət kağız üzərində və elektron qaydada tərtib oluna bilər. Kağız üzərində şikayət Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin poçt ünvanına, elektron şikayət isə bu reqlamentin 2.5-ci bəndində göstərilən poçt ünvanına göndərilməlidir. Şikayətdə fiziki şəxsin adı, atasının adı, soyadı, ünvanı, poçt və ya elektron poçt ünvanı, yaxud işlədiyi yer göstərilməlidir.

**3.5.3. Şikayətin baxılma müddəti:** Şikayətə ən geci 15 iş günü ərzində baxılmalıdır. Əlavə öyrənilməsi və yoxlanılması tələb edilən şikayətlərə isə ən geci 30 iş günü müddətində baxılır.

"Vərəsəlik işlərinin açılıb-açılmaması barədə məlumatın verilməsi üzrə inzibati reqlament"ə 1 №-li əlavə

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 31 oktyabr 2017-ci il tarixli **20-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiya qərarı
2. 13 fevral 2019-cu il tarixli **5-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 31 oktyabr 2017-ci il tarixli **20-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiya qərarı ilə qərarın preambulasında "**Dövlət orqanlarının**" sözlərindən sonra "**və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin**" sözləri əlavə edilmişdir.

[2] 13 fevral 2019-cu il tarixli **5-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı ilə "Vərəsəlik işlərinin açılıb-açılmaması barədə məlumatın verilməsiüzrə inzibati reqlament"in 1.2, 1.8, 3.5-ci bəndlərində, 3.3.3-cü yarımbəndin 2-ci abzasında və 3.3.5-ci yarımbəndində ismin müvafiq hallarında "**kontoru**" sözü ismin müvafiq hallarında "**ofisi**" sözü ilə əvəz edilmişdir.

[3] 31 oktyabr 2017-ci il tarixli **20-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiya qərarı ilə "Vərəsəlik işlərinin açılıb-açılmaması barədə məlumatın verilməsi üzrə inzibati reqlament"in1.3.3-cü yarımbəndində "**Dövlət orqanlarının**" sözlərindən sonra "**və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin**" sözləri əlavə edilmişdir.

[4] 31 oktyabr 2017-ci il tarixli **20-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiya qərarı ilə "Vərəsəlik işlərinin açılıb-açılmaması barədə məlumatın verilməsi üzrə inzibati reqlament"in1.3.4-cü yarımbəndində "**Mərkəzi icra hakimiyyəti orqanları**" sözlərindən sonra "**və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər**" sözləri əlavə edilmişdir.

[5] 31 oktyabr 2017-ci il tarixli **20-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiya qərarı ilə "Vərəsəlik işlərinin açılıb-açılmaması barədə məlumatın verilməsi üzrə inzibati reqlament"in3.3.4-cü yarımbəndində "**dövlət orqanı**" sözləri "**dövlət qurumu**" sözləri ilə əvəz edilmişdir.